# Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası

**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası 1928-ci ildən fəaliyyət göstərir. Yarandığı ilk illər yalnız qiraətxanaya, məhdud kitab fondu ilə az oxucuya malik olsa da, illər ötdükcə, zəngin kitab fondu yaratmağa, kitabxanaya minlərlə abunəçiləri cəlb etməyə, şöbələrin sayını artırmağa nail olmuşdur.**

1937-ci ildə kitabxanaya aktyor, rejissor Məmməd Əlilinin təşəbbüsü ilə Azərbaycan dramaturgiyasının banilərindən biri olan yazıçı-dramaturq Cəfər Cabbarlının adı verilmişdir.

Böyük Vətən Müharibəsi illərində digər sahələrdə olduğu kimi, kitabxana, kitabxana işi sahəsində də nisbətən durğunluq, qeyri-irəliləyiş dövrü yaşandı. Müharibədən sonra, xüsusilə də 1950-ci ildən sürətli inkişaf, əsas canlanma özünü büruzə verdi.

Direktor Oruc Quliyev qeyd etdi ki, 1957-ci ildə kitabxana daha yararlı, yeni və geniş binaya köçürüldü. Böyük dramaturqumuz Cəfər Cabbarlının adını daşıyan bu kitabxana sanki mənəvi sənət ocağına çevrilmişdir.

1976-cı ildən kitabxana Gənclər Kitabxanası statusunu almışdır. Kitabxana ötən 90 il ərzində qarşısına yalnız bir məqsəd qoymuşdur: “İstər Azərbaycan, istərsə bütün dünya xalqlarının ədəbiyyatlarını təbliğ etmək, xalqın, millətin mənəvi potensialının inkişafının yüksəlməsində, elmin bütün sahələrini sevməsində, xüsusilə də gənc nəslin maariflənməsində, vətənpərvərlik, mənəvi tərbiyəsində müəyyən dərəcədə xidmət göstərmək”.

Oruc müəllim onu da qeyd etdi ki, gənclər kitabxanası statusuna malik kitabxananın oxucularını 14-29 yaş həddindəki gənclər təşkil etməli olmasına baxmayaraq, abonentlərin sırasında qulluqçular, tərbiyəçilər, müxtəlif peşə, sənət adamları, hətta təqaüdçülər də çoxluq təşkil edir.

Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2004-cü il tarixli 56 saylı “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” Sərəncamına uyğun olaraq kitabxananın kitab fondu latın qrafikası ilə çap olunmuş yeni ədəbiyyatlarla zənginləşdirilmişdir. Faktdır ki, bu fərman və sərəncamlarla bağlı Azərbaycan ədəbiyyatı, mədəniyyəti və elminin vaxtilə Kiril qrafikası ilə çap olunmuş qiymətli nümunələrinin latın qrafikasında yenidən kütləvi şəkildə nəşr olunması günün ən vacib məsələlərindən biri sayıldığı üçün həmin ədəbiyyatların böyük qismi latın qrafikası ilə yenidən nəşr olunmuş, digər kitabxanalar kimi, Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının da kitab fondunda yer almışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 28 dekabr 2006-cı il tarixində “Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsinə dair Milli Fəaliyyət Planının təsdiq edilməsinə” dair Sərəncam imzalamışdır. Bu sərəncamdan irəli gələn tədbirləri həyata keçirmək üçün Mədəniyyət naziri Əbülfəs Qarayevin təşəbbüsü ilə “İnformasiya hamı üçün” YUNESKO Proqramının Rusiya komitəsi ilə əldə edilmiş razılığa əsasən Azərbaycanda ilk dəfə olaraq 27 fevral 2008-ci ildə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında İctimai Hüquqi İnformasiya Mərkəzi (İHİM) yaradılmışdır. Mərkəzin yaradılmasında əsas məqsəd Azərbaycan vətəndaşlarının Rusiya Federasiyasının qanunvericiliyi ilə məlumatlandırılmasını təmin etmək, Azərbaycan vətəndaşlarına lazım olan məlumatı tez və operativ çatdırmaq, Rusiya Qanunvericilik toplusundan yararlana bilən məntəqələr üçün metodiki mərkəz rolunu oynamaq olmuşdur.

Oruc müəllim onu da qeyd etdi ki, kitabxana ilə “Digesta” firması arasında bağlanmış müqaviləyə əsasən burada Azərbaycan Respublikasının Qanunvericilik bazası yaradılmışdır. Bu bazaya daxil olanların Azərbaycan Qanunvericiliyini əks etdirən bütün sənədlərdən, normativ-hüquqi aktlardan yararlanmaq imkanları vardır.

Kitabxanada 2013-cü ildən respublikada ilk Toplu Kataloq və AZLİBNET Milli Kitabxana-İnformasiya Mərkəzinin (www.azlibnet.az) yaradılması Azərbaycanda kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması sahəsində ilk təcrübə olmaqla yanaşı, biblioqrafik yazıların bir mərkəzdən idarə edilməsi və təkrarçılığın aradan qaldırılmasını təmin edir. AZLİBNET vasitəsi ilə respublikada mövcud olan elektron resursların fasiləsiz və uzaq məsafədən idarə edilməsi sistemi yaradılmışdır.

2018-ci ildən kitabxana tam şəkildə ALİSA Avtomatlaşdırılmış Kitabxana İnformasiya Proqramına keçmişdir.

Qeyd etmək lazımdır ki, artıq kitabxananın resurs və xidmətlərindən Azərbaycanla yanaşı, yaxın və uzaq MDB ölkələrinin vətəndaşları da istifadə edə bilirlər.

Virtual məkanda fəaliyyətini genişləndirmək, sosial şəbəkələrdə gənclərin yanında olmaq məqsədi ilə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası daim yenilikləri öyrənir, tətbiq edir, treninqlər keçirir, müxtəlif mövzuları əhatə edən kütləvi tədbirlər təşkil edir.

Kitabxanaya aid bütün yeniliklər, keçirilən kütləvi tədbirlər il ərzində kitabxananın Facebook səhifəsində əks etdirilir, istifadəçilər kitabxananın kitab fonduna yeni daxil olan ədəbiyyatlarla məlumatlandırılır, istifadəçi sualları cavablandırılır, gənc yazarlarla müsabiqələr təşkil olunur.

Hazırda kitabxananın on şöbəsi və bir filialı vardır.

2018-ci ilin dekabr ayında Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının yaranmasının 90 illiyi münasibətilə “Kitabxanalar-ənənələr, innovasiyalar” mövzusunda beynəlxalq elmi-praktik konfrans və Azərbaycan Dövlət Musiqili Teatrında təntənəli yubiley tədbiri keçirilmişdir. 90 illik yubileylə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 dekabr 2018-ci il Sərəncamına əsasən kitabxananın dörd nəfər əməkdaşı “Tərəqqi” medalı ilə təltif olunmuşdur.

Kitabxanada il ərzində müxtəlif tarixi-əlamətdar günlərə, görkəmli şəxsiyyətlərin, şair və yazıçıların yubileylərinə, bayramlara, aktual mövzulara həsr olunmuş tədbirlər keçirilir. Kitabxananın təşkil etdiyi müxtəlif mövzuları əhatə edən treninqlərdə Bakı və rayon MKS-lərinin əməkdaşları da iştirak edirlər.

Fərəhlə qeyd etmək lazımdır ki, hazırda kitabxananın kitab fondunu 144 000 nüsxə Azərbaycan, rus və digər xarici dillərdə ədəbiyyatlar təşkil edir.

Kitabxana oxucularının sayı 16 675 nəfərdir ki, onların da əksəriyyəti gənclərdir.

Oxuculara kitab verilişi 207 466 nüsxə, virtual oxucuların sayı isə 38 800 nəfərdir. Onu da qeyd etmək lazımdır ki, Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası bu gün Azərbaycanın tanınmış mədəniyyət müəssisələrindən biridir.

**Zabit CAVADOV,**
**“Respublika”.**